# "USTA Mənəm!"

# PEŞƏKAR USTALIQ MÜSABİQƏSİ

# Haqqında

# Reqlament

**Müsabiqənin təsisçisi:**

Holcim Azərbaycan ASC

**Müsabiqənin təşkilatçısı:**

Holcim Azərbaycan ASC

**“Usta Mənəm!”**

**PEŞƏKAR USTALIQ MÜSABİQƏSİ**

## 1. ÜMUMİ MÜDDƏALAR

**1.1. Yeni tikilən ictimai və yaşayış obyektlərinin, keyfiyyət səviyyəsinin yüksəldilməsi mövzusuna artan ictimai marağı nəzərə alaraq, İqtisadi Zonaların İnkişafı Agentliyinin tərəfdaşlığı ilə müsabiqənin təsisçisi və təşkilatçısı Holcim Azərbaycan ASC tərəfindən “Usta MƏNƏM!” peşəkar ustalıq müsabiqəsinin keçirilməsi barədə qərar qəbul edilmişdir.**

**1.2. Müsabiqənin təsisçisi:**

**Holcim Azərbaycan ASC**

**1.3. Müsabiqənin təşkilatçısı:**

**Holcim Azərbaycan ASC**

**1.4. Müsabiqənin əhatə dairəsi**

**Müsabiqə Azərbaycan Respublikasının bütün iqtisadi rayonlarını (Qarabağ, Şərqi Zəngəzur və Naxçıvan istisna ) əhatə edir**

**1.5. Bu Reqlamendə istifadə edilən əsas anlayışlar**

**Bu Reqlamentdə aşağıdakı əsas anlayışlardan istifadə olunur:**

**Müsabiqə – bu Reqlamentin 3.1-ci maddəsinin tələblərinə cavab verən istənilən fiziki şəxsin iştirak edə biləcəyi maarifləndirmə və təşviqat aksiyası. Aksiya zamanı iştirakçılar tərəfindən müsabiqənin Təsisçisi və Təşkilatçısının təsdiq etdiyi və qiymətləndirmə kriteriyalarına cavab verən praktiki işlər icra olunacaqdır;**

**İştirakçı – müsabiqədə iştirakı Təsisçi və Təşkilatçı tərəfindən təstiq edilən tikinti sahəsində çalışan 18 yaşı tamam olmuş istənilən fiziki şəxsdir;**

**Mükafatlar – müsabiqənin nominasiyaları üzrə qaliblərə verilən mükafatlar;**

**Qalib – müsabiqədə iştirak üçün qeydiyyatdan keçən, bütün mərhələlərdən kecən və müsabiqənin qaliblərinin müəyyənləşdirilməsi qaydaları üzrə ən yüksək bal alan fiziki şəxs;**

**Məlumat tərəfdaşları –müsabiqəni onun keçirilməsinin bütün mərhələlərində işıqlandıran media və sosial media platformaları.**

## 2 MÜSABİQƏNİN MƏQSƏD VƏ VƏZİFƏLƏRİ:

- Fərdi tikintilərdə və böyük layihələrdə qabaqcıl məhsulların və yeni texnoloji həllərin təqdim edilməsi;

- Ustalar arasında innovativ məhsulları və inşaat sistemləri haqqında maarifləndirmə işlərinin aparılması;

- Ustaların inşaat məhsulları və yanaşmalarından istifadə səriştə və bacarıqların artırılması;

## 3. MÜSABİQƏNİN İŞTİRAKÇILARI

3.1. Müsabiqədə Azərbaycanda failiyyət göstərən yaşı 18-dən yuxarı olan tikinti şirkətlərinin nümayəndələri və ya fərdi ustalar iştirak edə bilərlər.

3.2. Müsabiqəyə bir iştirakçı yalnız bir ərazi vahidindən qeydiyata düşə bilər və final mərhələsinə qədər hər mərhələdə bir dəfə iştirak edə bilər.

3.3. İştirakçı müsabiqədə iştirakla bağlı bütün xərcləri (qidalanma xərcləri istisna olmaqla), o cümlədən internet, telefon, nəqliyyat xərclərini öz üzərinə götürür.

3.4. Müsabiqənin Təşkilatçısı müsabiqənin şərtlərinə və tələblərinə cavab verməyən iştirakçının Müsabiqədən çıxarılması hüququna malikdir.

3.5. Münsiflər Heyətinin üzvlərinin, Müsabiqə Təşkilatçısının işçilərinin və onların ailə üzvlərinin müsabiqədə iştirak etmək hüququ yoxdur.

3.6. Müsabiqədə iştirak pulsuzdur.

3.7. Müsabiqənin gedişi barədə məlumatlar müsabiqənin Təşkilatçısının rəsmi internet səhifəsində, sosial media platformlarında və müxtəlif informasiya resurslarında işiqlandırılacaq

3.8. Qaliblər haqqda məlumat müsabiqənin tərəfdaşları olan sosial media platformalarında və müxtəlif informasiya resurslarında dərc olunacaqdır.

3.9. Aşağıdakı hallarda iştirakçılar yarışdan kənarlaşdırıla bilər:

3.9.1. Yarış zamanı iştirakçının rəqibin alətlərinə , maketinə müdaxilə etdikdə , alətlərindən və materialarından istifadə etdikdə;

3.9.2. Münsüflərin qiymətləndirmə aparılan vaxtı iştirakçı əraziyə daxil olduqda və prosesə mane olduqda;

3.9.3. Yarış zamanı iş yerində siqaret çəkdikdə;

3.9.4. Yarışa sərxoş halda gəldikdə;

3.9.5. Yarışa özü ilə alkoqollu içkilər və digər məstedici madədlər gətirdikdə;

3.9.6. Münsiflər Heyətinə, iştirakçılara və digər şəxslərə qarşı qeyri-etik hərəkətlər etdikdə;

**3.9.7. Müsabiqə Reqlamentində müəyyən edilmiş gün və vaxtda Yarış yerinə gəlmədikdə.**

## 4. MÜSABİQƏ İŞTİRAKÇILARININ QEYDİYYATI

**4.1. Müsabiqədə iştirak etmək üçün Anket-ərizəni (Google Diskdəki sənəd) doldurmaqla QR code və ya rəsmi saytda yerləşdirən link vasitəsi ilə qeydiyyatdan keçməli, daha sonra özü barədə bir dəqiqədən çox davam etməyən videonun çəkib və saytda qeyd olunan telefon nömrəsinə Whatsapp + 994 51 250 80 65 şəbəkəsi vasitəsilə göndərməlidir.**

**4.2. Rayonlar qrupu üzrə keçirilən hər bir yarışa qeydiyyat onun başlanması gününə 10 (on) gün qalmış dayandırılır.**

## 5. İŞTİRAKÇILARININ SECIMI

**5.1. Qeydiyyat vaxtı bitdikdən sonra Müsabiqədə iştiraka seçimi zamanı aşağıdakı meyarlar əsas götürülür:**

**5.1.1. Sorğu vərəqəsinin bütün bəndlərinin doldurulması;**

**5.1.2. Iştirakçıdan video mesajın göndərilməsi;**

**5.1.3. Reqlamentdə qeyd olunan qaydalara riayət olunması.**

**5.2. Anketin doldurulması, video mesajın hazırlanması qüsurlu olduqda və ya anket sorğusunun qaydalarına uyğun gəlmədikdə Namizəd ilkin seçim mərhələsində iştiraka baxılmayacaqdır.**

**5.3. Müsabiqənin birinci mərhələsində Respublikanın rayon və şəhərlər qrupları üzrə iştirakçı sayının yuxarı həddi Əlavə 3-də qeyd edilmişdir.**

**5.4. Müsabiqənin birinci mərhələsində rayon və şəhər qrupları üzrə qeydiyatdan keçənlərin sayı Əlavə 3-də qeyd edilmiş saydan artıq olduğu halda Təşkilatçı qeydiyatdan keçənlərin arasında şəffaf seçimi təşkil etmək məqsədi ilə, avtomatlaşdırılmış qaydada (xüsusi proqram təminatı istifadə etməklə) seçim edir. Tələb olunan iştirakçı sayına əlavə olaraq , Təşkilatçı 5 (beş)-ə qədər ehtiyat iştirakçı seçmək hüququna malikdir. Secilmiş ehtiyat iştirakçılar sıra nömrəsi ilə qeyd olunacaqdır.**

**5.5. İştirakçının qeydiyyatdan keçməsi və yarışlarda iştirakının təsdiqlənməsi SMS vasitəsi ilə onun qeyd etdiyi telefon nömrəsinə göndəriləcəkdir. İştirakçıya yarışın keçirilməsi tarixi və yeri barədə telefon rabitəsi vasitəsilə məlumat veriləcəkdir.**

**5.6. Ilkin seçim mərhələsindən sonra Təşkilatçı bu Reqlamentdə göstərilən tələblərə cavab verən bütün namizədlərin siyahısını yaradır. Siyahı təşkilatçının saytında dərc olunacaq**

**Seçilmiş rayon və ya şəhər qruplarına uyğun olaraq ehtiyat iştirakçılar regional yarışlara dəvət olunacaqlar. Yarışda iştirakçı və ya bir necə iştirakçı iştirak etmədikdə və ya kənarlaşdırıldıqda, sıralama nömrələrini nəzərə alaraq ehtiyat iştirakçılar əsas iştirakçıların yerini tutacaqdır.**

## 6. MÜSABİQƏNİN MÜNSİFLƏR HEYƏTİ

**6.1. Müsabiqənin qiymətləndirilməsi, qaliblərin müəyyən edilməsi üçün Münsiflər Heyəti təyin edilir.**

**6.2. Münsiflər Heyətinin tərkibi müsabiqədən əvvəl Təşkilatçı tərəfindən müəyyən edilir. Münsiflər heyəti Münsiflər Heyətinin sədri və 4 üzvdən ibarətdir. Münsiflər heyətinin sədr və üzvləri tikinti sahəsində çalışan mütəxəssislər. Münsiflər Heyəti Təşkilatçının müəssisələrində failiyyət göstərən, tikinti materialları sahəsində calışan mütəxəssisləri və tikinti sahəsinə aid biliklər tədris edən təhsil müəssisələrinin əməkdaşları arasından təyin edilir.**

**6.3. Münsifərlər Heyəti müsabiqənin keçirildiyi vaxt ərzində sahədə iştirakçıların tapşırığı hazırlama prossesinə nəzarət edir. Münsiflər Heyətinin üzvlərinin qiymətləndirmələri əsasında yekun protokol tərtib olunur. Üzvlərinin sədr də daxil olmaqla üçdə ikisi iştirak etdikdə Münsiflər Heyəti səlahiyyətlidir. Səsvermə zamanı Münsiflər Heyətinində səslər bərabər olduqda sədrin səsi həlledici hesab edilir.**

**6.4. Bu Reqlamentdə nəzədə tutulduğu halda Münsiflər Heyətinin iştirakçını Müsabiqədən kənarlaşdırmaq hüququ vardır.**

## 7. MÜSABİQƏNİN PROQRAMI

**7.1.Müsabiqə iki mərhələdə keçirilir.**

**Birinci mərhələ rayonlar və şəhərlərdə seçim mərhələsi kimi keçirilir. Hər yarışdan 1 nəfər ən yaxşı nəticə göstərən final turuna vəsiqə qazanır. Qeyd edilən seçilmiş iştirakçılardan başqa. hansı ərazi vahidində iştirak etməsindən asılı olmayaraq keçirilmiş yarışlar üzrə ən çox bal toplamış 11 nəfər yarış iştirakçısı da Final mərhələsinə keçir. Final mərhələsinə seçilənlərin sayı 28 nəfərdən artıq ola bilməz.**

**İkinci, Final mərhələsində iştirakçılar 1-ci, 2-ci, 3-cü yerlər uğrunda mübarizə aparır. Bura həmçinin Münsiflər Heyətinin müqayisə və qiymətləndirməsi nəticəsində Müsabiqə Qalibinin müəyyən edilməsi daxildir.**

**7.1. Tətbir proqramı və regionlar üzrə kecirilmə tarixləri Əlavə 3-də qeyd olunmuşdur.**

## 8. MÜSABİQƏNİN TƏLƏBLƏRİ

**8.0. Müsabiqənin tələbləri aşağıdakılardır:**

**8.0.1. müsabiqənin tələbi tikinti işlərində nəzərdə tutulan innovativ materiallar və yeni inşaat yanaşmaları ilə (Əlavə 2-də qeyd olunmuş) qiymətləndirmə meyarlarına uyğun tikinti elemetli modul maketin hazırlanması;**

**8.0.2. qabaqcıl məhsuların və texnoloji həllərin standartlara uyğun tətbiqi.**

## 9. MÜSABİQƏ ÜÇÜN NƏZƏRDƏ TUTULMUŞ MODUL MAKETİNİN QİYMƏTLƏNDİRİLMƏSİNİN ƏSAS MEYARLARI

**9.1. Müsabiqə üçün nəzərdə tutulmuş modul maketinin qiymətləndirilməsinin əsas meyarları aşağıdakılardır:**

**- Modulun cizgilərdə göstərilən ölçülərə uyğun yığılması;**

**- Modulun plan cizgilərə uyğun yığılması;**

**- Ustanın tapşırığı yerinə yetirərkən Əməyin Mühafizəsi və Texniki Təhlükəsizlik qaydalarına əsasən işlərin görülməsi;**

**- Modulun tapşırığa uyğun həndəsi vəziyyəti - üfüqi vəziyyət, şaquli vəziyyət və perpendikulyar vəziyyəti;**

**- Modulun estetik görüntüsü və iş yerinin səliqəli olması;**

**- Modulun qaydalarda ayrılan vaxt ərzində tamamlanması.**

**9.2. Modulun qiymətləndirməsi Əlavə 2-də qeyd olunmuş protokol və şərtlərə əsasən aparılacaqdır.**

## 10. QİYMƏTLƏNDİRMƏ PROSESİ

**10.1. Müsabiqənin birinci mərhələsi üzrə qiymətləndirmə Əlavə 2-də qeyd olunmuş tapşırıqlara əsasən qiymətləndirilmə meyarlarına uyğun olaraq, 1- 10 ballıq şkala üzrə keçirilir. Toplanılmış balların cəminə əsasən Əlavə 2-də qeyd edilmiş hər rayon və şəhər qrupu üzrə daha çox bal toplamış 1 iştirakçı Müsabiqənin Final mərhələsinə keçir. Qeyd edilən seçilmiş iştirakçılardan başqa keçirilmiş yarışlar üzrə ən çox bal toplamış 11 nəfər yarış iştirakçısı da Final mərhələsinə keçir.**

**10.2. Müsabiqənin ikinci mərhələsində qiymətləndirmə meyarları və tapşırıqları barədə məlumatlar Əlavə 4-də qeyd ediləcəkdir.**

**10.3. Müsabiqənin birinci mərhələsi bitdikdən sonra Əlavə 4 bu Reqlamentə əlavə ediləcəkdir və iştirakçılara Təşkilatçı tərəfindən öncədən Reqlamentə qeyd olunan**

**informasiya vaistəsi ilə əvvəlcədən məlumatlandıracaqdır. İştirakçılara QR kod vasitəsilə həmin əlavə ilə tanış ola biləcəklər.**

**10.4. Münsiflər Heyəti Əlavə 2 və Əlavə 4-də də qeyd olunan protokolu və şərtləri rəhbər tutaraq qiymətləndirmə aparır.**

**10.5. Müsabiqənin qalibi Münsiflər heyətinin qərarı əsasnamənin 9.2 bəndində qeyd olunmuş qayda üzrə bal çoxluğuyla, qazanılmış balların cəminə əsasən müəyyənləşdirilir. Qalib daha çox bal toplayan hesab edilir. Əgər iştirakçılar eyni miqdarda bal yığarlarsa, onda tapşırığı hazırlayan zaman Münsiflər Heyəti tərəfindən qeyd olunan nöqsanlar və tapşırığın icra keyfiyyəti nəzərə alınaraq qalib seçilir.**

**10.6. Müsabiqənin hər iki mərhələsində müsabiqənin nəticələri Münsiflər Heyəti tərəfindən müsabiqə bitdikdən 2 saat ərzində elan edilir.**

**10.7. Münsiflər Heyətinin qərarı qətidir və ondan şikayət verilə bilməz.**

## 11. MÜSABİQƏNİN MÜKAFATLARI

**11.1. Müsabiqənin nəticələrinə uyğun olaraq, Münsiflər Heyətinin qərarı ilə qalib, həmçinin ikinci və üçüncü yerlər müəyyən edilir.**

**11.2. Müsabiqənin qalibinə Pick-Up modelində avtomobili təqdim olunacaqdır. Müsabiqədə ikinci və üçüncü yerləri qazananlar üçün dəyərli hədiyyələr, Finala çıxan iştirakçılara isə həvəsləndirici (elektrik alətləri) hədiyyələr təqdim olunacaqdır.**

**11.3. Mükafatların verilməsi təhvil - təslim aktı ilə təsdiqlənir.**

## 12. XÜSUSİ ŞƏRTLƏR

**12.1. Təşkilatçı müsabiqə haqqında əlavə məlumat yerləşdirmək hüququnu özündə saxlayır.**

**12.2. Müsabiqədə iştirak edərək iştirakçılar razılaşırlar ki, onların adları və soyadları, foto və video görüntüləri müsabiqənin Təşkilatçısı tərəfindən mediada Müsabiqənin işıqlandırılması zamanı istifadə oluna bilər və buna hər-hansı bir əlavə haqqın ödənilməsi tələb olunmur.**

**12.3. Müsabiqədə iştirak onu göstərir ki, iştirakçılar onun keçirilməsi ilə bağlı sözü gedən Reqlamentdə qeyd olunan qaydalar ilə tanış və tam razıdırlar.**

**12.4. Müsabiqdə hazırlanan modul maketlər başka heç bir yerdə istifadə oluna bilməz.**

**12.5. Müsabiqədə istifadə olunan bütün məhsullar və alətlər Təşkilatcı tərəfindən təqdim olunacaqdır.**

**12.6. Hər mərhələ üçün ayrı Modul maketlər hazırlanacaqdır.**

## 13. ƏLAQƏ

**<u>Müsabiqənin Təşkilatcısı: Holcim Azərbaycan ASC</u>**

**Tel.: (+994) 12 4418888**

**Əlavə №1**

**Peşəkar usta müsabiqəsində modul tapşırığında istifadə üçün təklif olunan Holcim materialları və inşaat sistemlərini məlumatları holcim.az saytında görə bilərsiz. Materialların qısa siyahısını aşağıdakı cədvəldə göstərilib.**

1. İnşaat quru qarışıqları
   - TEKTOR PLAST Hörgü
   - TEKTOR PLAST Astar
   - TEKTOR PLAST Üz

2. Tikinti blokları
   - Keramik kərpic 190x190x100
   - Geo Brick dekorativ kərpic

**Əlavə №2**

**Qiymətləndirmə Protokolu və Tapşırıqlar**

## Xüsusi şərtlər və qaydalar

Modul maketinin hazırlanmasına 3 saat ayrılır və bu vaxt əırzində bütün işlər bitirilməlidir.
Modul maketi qaydalara əsasən müəyənləşmiş vaxt ərzində tam hazır olmalıdır, əks halda hec bir nəticə qeydə alınmır.
Modul maketinin hazırlanması üçün nəzərdə tutulan alət və avadanıqlar Təşkilatcı tərəfindən təmin olunur, lakin iştirakçının özünə aid alətlərdən istifadə etməsinə icazə verilir
Yarışda hörgü ücün hazır məhlul istifadə olunur məhlul Təşkilatcı tərəfindən hazırlanır.
Yarışda istifadə olunan kərpiclər yarışların keçirilmə yerinə qabaqcadan Təşkilatcı tərəfindən yerləşdirilir.

| | | | | | | |
|---|---|---|---|---|---|---|
| **Qiymətləndirmə protokolu**<br>**Secim mərhələsi** | | | | | | |
| **İştirakcının Adı, soyadı ______________________________**<br>**İştirakçının № _______________**<br>**Tarix _______________________** | | | | | | |
| **Modulun yğılması üçün vaxt cərcivəsi** | | | | | | |
| **Tapşırığın açıqlanması** | **Meyar** | **Dəqiqə 140-150** | **Dəqiqə 150-160** | **Dəqiqə 160-170** | **Dəqiqə 170-180** | **Nəticə balı** |
| Modulun yığılmasına və işlərin bitməsinə 180 dəqiqə vaxt ayrılır. Qeyd olunan meyar maksimal 10 bal ilə qiymətlədirilir. İşlər 180 dəqiqədən tez bitikdə hər 10 dəqiqə görə 5 əlavə bal hesablan**ır** | İşlərin ayrılan vaxt ərzində bitmə**s**i | 25 | 20 | 15 | 10 | |
| **Modulun plan cizgilərinə uyğun yığılması** | | | | | | |
| **Tapşırığın açıqlanması** | **Meyar** | **Ölçü vahidi** | **Etalon ölçü** | **Maksimal bal** | **Yayınma** | **Nəticə balı** |
| Modulda 3 divar var, 2 divar bütöv və 1 divarda pəncərə boşluğu nəzərdə tutulub.<br>Divarlar ölçüləri ilə fərqlənir, tapşırığa əsasən divarlar yerləşməsi cizgidə göstərildiyi kimi yığılmalıdır.<br>Qeyd olunan meyar maksimal 10 bal ilə qiymətlədirilir. Hər hansı bir divarın | Divarların plan üzrə yerləşməsi | | | 10 | Var | |

| | | | | | | |
|---|---|---|---|---|---|---|
| səhv yerləşməsi qeydə alınarsa, bu tapşırıq 0 bal ilə nəticələnir. | | | | | Yox | |
| **Modulun cizgilərdə göstərilən ölcülərə uyqun yığılması.** | | | | | | |
| **Tapşırığın açıqlanması** | **Meyar** | **Ölçü vahidi** | **Etalon ölçü** | **Maksimal bal** | **Yayınma** | **Nəticə balı** |
| Modul 3 divardan ibarətdir, 2 divar bütöv şəkildə olacaq, 1 divarda pəncərə boşluğu var.<br>Hər üç divar və pəncərə boşluğu tapşırıqda qeyd olunan ölçülərə əsasən uzunluğu, və divarların paralelliyi ruletka və ya metrə vasitəsi ilə ölçülür.<br>6 nöqtə divarın uzunluğunda, və 2 nöqtədə divarın paralellik ölçüləri qeydə alınır (ölçmə yalnız modulun üst tərəfindən aparılır).<br>Bu bəndə olan meyarlar maksimal 80 bal ilə qiymətlədirilir.<br>Hər bir ölçüdə olan əyrilik qüsurlarının hər millimetrinə görə 1 bal<br>çıxılır və yekun nəticə qeydə alınır. | Sol divarın uzunluq ölçüsü | mm | 1450 | 10 | | |
| | Sağ divarın uzunluq ölçüsü | mm | 1160 | 10 | | |
| | Üz divarın uzunluq ölçüsü | mm | 1650 | 10 | | |
| | Pəncərə boşluğunun uzunluq ölçüsü | mm | 530 | 10 | | |
| | Pəncərə boşluğunun sol tərəf uzunluq | mm | 560 | 10 | | |
| | Pəncərə boşluğunun sağ tərəf uzunluq ölçüsü | mm | 560 | 10 | | |
| | Divarların paralelik üz tərəfdə ölçüsü | mm | 1650 | 10 | | |
| | Divarların paralelik sonunda ölçüsü | mm | 1650 | 10 | | |
| **Modulun tapşırığa uyğun həndəsi vəziyyəti,** | | | | | | |
| **Tapşırığın açıqlanması** | **Meyar** | **Ölçü vahidi** | **Etalon ölçü** | **Maksimal bal** | **Yayınma** | **Nəticə balı** |
| Divarın Üfüqi vəziyyəti, şaquli vəziyyəti və 90 dərəcə perpendikulyar vəziyyəti<br>Modulun hər 3 divarı ayrılıqda üst tərəfləri və pəncərə boşluğunun üfüqi vəziyyəti ümumi 4 yerdə ölçülür. Ölçülər səviyyə ölçən cihaz ilə və 2 m profil vasitəsi ilə qeydə alınır. (ölçmə yalnız modulun üst tərəfindən aparılır).<br>Modulun divarları şaquli vəziyətinin ölçülməsi 10 yerdə ölçülür. 2 nöqtə divarın bitən hissəsində (yamac), 6 | Sol divarın üfüqü səviyyəsi | mm | 0 | 10 | | |
| | Sağ divarın üfüqü səviyyəsi | mm | 0 | 10 | | |
| | Üz divarın üfüqü səviyyəsi | mm | 0 | 10 | | |
| | Pəncərə boşluğunun üfüqü səviyyəsi | mm | 0 | 10 | | |

| | | | | | | |
|---|---|---|---|---|---|---|
| nöqtə divarın künclərində və ona paralel olan hissədə, 2 nöqtə pəncərə boşluğunda ölçülür.<br>Ölçülər səviyyə ölçən cihaz ilə və 2 m profil vasitəsi ilə qeydə alınır.<br>Divarların xətt üzrə düzlüyü modulun çöl tərəfində aparılır, 2 m profil və ya ip vasitəsi ilə yoxlanılır.<br>Profil və ya ip divara 3 vəziyyətdə qoyulur: 1 düz və 2 diaqonal şəkildə.<br>Modulda divarların künclərində perpendikulyar vəziyyətinin yoxlanılması 2 nöqtədə modulun çöl hisəsində aparılır.<br>Ölçülər 90 dərəcə ölçən (uzunluğu minimum 60 sm) alətlə aparılır (ölçmə yalnız modulun üst tərəfindən aparılır).<br>Bu bəndə olan meyarlar maksimal 190 bal ilə qiymətlədirilir .<br>Hər bir ölçüdə olan əyrilik qüsurları hər millimetrə görə 1 bal çıxılır və yekun nəticə qeydə alınır. | Sol divarın bitən (otkos) hissəsi şaquli səviyyəsi | mm | 0 | 10 | | |
| | Sağ divarın bitən (otkos) hissəsi şaquli səviyyəsi | mm | 0 | 10 | | |
| | Sol divarın künc 1 şaquli səviyyəsi | mm | 0 | 10 | | |
| | Sol divarın künc 2 şaquli səviyyəsi | mm | 0 | 10 | | |
| | Sağ divarın künc 1 şaquli səviyyəsi | mm | 0 | 10 | | |
| | Sağ divarın künc 2 şaquli səviyyəsi | mm | 0 | 10 | | |
| | Üz divarın sol tərəf şaquli səviyyəsi | mm | 0 | 10 | | |
| | Üz divarın sağ tərəf şaquli səviyyəsi | mm | 0 | 10 | | |
| | Pəncərə boşluğunun sağ tərəf şaquli səviyyəsi | mm | 0 | 10 | | |
| | Pəncərə boşluğunun sol tərəf şaquli səviyyəsi | mm | 0 | 10 | | |
| | Sol divarın xətt üzrə düzlüyü | mm | 0 | 10 | | |
| | Sağ divarın xətt üzrə düzlüyü | mm | 0 | 10 | | |
| | Üz divarın xətt üzrə düzlüyü | mm | 0 | 10 | | |
| | Sol divarın üz divara perpendikulyarlığı vəziyyəti | mm | 0 | 10 | | |
| | Sağ divarın üz divara perpendikulyarlığı vəziyyəti | mm | 0 | 10 | | |
| **Əməyin Mühafizəsi və Texniki Təhlükəsizlik qaydalarına əsasən işlərin görülməsi** | | | | | | |
| **Tapşırığın açıqlanması** | **Meyar** | **Ölçü vahidi** | **Etalon ölçü** | **Maksimal bal** | **Yayınma** | **Nəticə balı** |

## Plan




## Pəncərə boşluğu ölçüləri




## Sol tərəf görünüş




## Sağ tərəf görünüş



**Əlavə №3**
**Tətbir Proqramı və Tarixlər**

| № | Keciriləcək yer | Region Qrupu | Kecirilmə Tarixi | Mərhələ iştirakcıların sayı | Qeydiyatın bitmə tarixi |
|---|---|---|---|---|---|
| 1 | Bakı 1 | Xırdalan | 08.05.2025 | 30 | 29.04.2025 |
| 2 | Salyan | Salyan<br>Neftçala<br>Biləsuvar<br>Shirvan<br>Cəlilabad | 13.05.2025 | 30 | 03.05.2025 |
| 3 | Lənkaran | Lerik<br>Masallı<br>Yardımlı<br>Astara<br>Lənkəran | 16.05.2025 | 30 | 06.05.2025 |
| 4 | İmişli | Ağcabədi<br>Beyləqan<br>İmişli<br>Füzuli<br>Saaatli | 21.05.2025 | 30 | 11.05.2025 |
| 5 | Kürdəmir | Hacıqabul<br>Kürdəmir<br>Sabirabad<br>Ucar<br>Zərdab | 27.05.2025 | 30 | 17.05.2025 |
| 6 | Bərdə | Yevlax<br>Bərdə<br>Tərtər<br>Ağdam | 30.05.2025 | 30 | 20.05.2025 |

| | | | | | |
|---|---|---|---|---|---|
| 7 | Gəncə | Goranboy | 10.06.2025 | 30 | 01.06.2025 |
| | | Naftalan | | | |
| | | Gəncə | | | |
| | | Göygöl | | | |
| | | Samux | | | |
| | | Daşkəsən | | | |
| 8 | Tovuz | Şəmkir | 13.06.2025 | 30 | 03.06.2025 |
| | | Gədəbəy | | | |
| | | Tovuz | | | |
| | | Qazax | | | |
| | | Ağstafa | | | |
| 9 | Quba | Quba | 15.08.2025 | 30 | 05.06.2025 |
| | | Qusar | | | |
| | | Xaçmaz | | | |
| | | Şabran | | | |
| | | Siyəzən | | | |
| 10 | Şamaxı | Qobustan | 20.08.2025 | 30 | 10.08.2025 |
| | | İsmayıllı | | | |
| | | Şamaxı | | | |
| | | Ağsu | | | |
| 11 | Ağdaş | Ağdaş | 26.08.2025 | 30 | 16.08.2025 |
| | | Mingəcevir | | | |
| | | Göycay | | | |
| 12 | Oğuz | Oğuz | 29.08.2025 | 30 | 19.08.2025 |
| | | Qəbələ | | | |
| 13 | Şəki | Şəki | 05.09.2025 | 30 | 25.08.2025 |
| | | Oğuz | | | |
| 14 | Balakən | Balakən | 09.09.2025 | 30 | 30.08.2025 |
| | | Zakatala | | | |

| | | | | | |
|---|---|---|---|---|---|
| 15 | Bakı 2 | Maştağa qəs. | 16.09.2025 | 30 | 06.09.2025 |
| 16 | Sumqayıt | Sumqayıt<br>Xızı | 19.09.2025 | 30 | 09.09.2025 |
| 17 | Abşeron | Abşeron<br>Xırdalan | 25.09.2025 | 30 | 15.09.2025 |
| 18 | Final Bakı | Bakı Ekspo Mərkəzi | 15.11.2025 | 28 | |

***Peşakar ustalıq müsabiqəsi***
***Tətbir proqrammı***

| | |
|---|---|
| **9.00-10.00** | **İştirakçıların qeydiyatı** |
| **10.00-10.30** | **Tətbirin rəsmi aclışı. İştirakçıların salamlanması** |
| **10.30-11.00** | **Müsabiqə iştirakcılarının yarış ərazidə toplanması.<br>Yarış qaydalarının izahı və təlimatlar** |
| **11.00-14.00** | **Yarışın başlanması, modul tapşırığının hazırlanması** |
| **14.00-15.00** | **Kofe, nahar fasiləsi.<br>Holcim innovativ məhsularının təqdimatı və nümayişı.<br>Modul tapşırığının qiymətləndirməsi, nəticələrin hesablanması.** |
| **15.00-15.30** | **Müsabiqə nəticələrin elanı** |